**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№312/3** **24 iyul 2019-cu il**

**2019-cu il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin layihəsinin hazırlanması barədə**

Auditorlar Palatasının 2019-cu il üzrə iş planının 4.1-ci “2019-cu il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin layihəsinin hazırlanması” bəndinin icrası ilə əlaqədar kadr hazırlığı şöbəsi (E.Behbudova) tərəfindən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış tədris proqramının və qrafikinin layihələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “2019-cu il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramı və qrafiki” təsdiq edilsin (əlavə olunur).
2. Kadr hazırlığı şöbəsinə (E.Behbudova) tapşırılsın ki, təsdiq olunmuş sənədlər üzrə 2019-cu ildə auditorların, o cümlədən auditor fəaliyyəti ilə məşğul olmaq hüququnu verən xüsusi razılığı (icazəni) müvəqqəti olaraq Palataya qaytaran şəxslərin, habelə auditor adı almaq üçün imtahanı müvəffəq vermiş və xüsusi razılığı (icazəni) almamış şəxslərin Palata tərəfindən cari ildə keçiriləcək ixtisasartırma kurslarında iştirak etmələri ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi təmin edilsin.
3. Kadr hazırlığı şöbəsinə (E.Behbudova) tapşırılsın ki, 2019-cu il üzrə auditorların ixtisasartırma kurslarını tədris edən müəllimlər tərəfindən cari ilin 1 avqust tarixinədək tədris materiallarının təqdim olunması təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**